# Ümummilli lider Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilmişdir

Dekabrın 12-də müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsi ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da dərin ehtiramla yad edilmişdir.

Həmin gün minlərlə insan səhər saatlarından başlayaraq Naxçıvan şəhərinin Heydər Əliyev prospektində ulu öndərin əzəmətlə ucalan abidəsini ziyarət etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər gül dəstəsi qoymuş, xalqımızın böyük oğlunun xatirəsini ehtiramla yad etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri, minlərlə insan ulu öndərin abidəsini ziyarət etmiş, dahi şəxsiyyətin əziz xatirəsinə sonsuz məhəbbətlərini ifadə etmişlər.

Ən yeni tariximizin elə bir məqamı yoxdur ki, ulu öndər Heydər Əliyevin adı, həyatı və siyasi fəaliyyəti ilə sıx şəkildə bağlı olmasın. Dahi şəxsiyyət parlaq siyasi zəkası və istedadı sayəsində müstəqil və qüdrətli Azərbaycan dövlətini yaratmış, onun davamlı inkişaf yollarını müəyyənləşdirmişdir. Bu gün müstəqil Azərbaycanın inkişafının hər bir zərrəsində dahi rəhbərin ideyaları yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir".

"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt insan kimi həyatımı başa çatdıracağam" deyən ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə yaratdığı sosial-iqtisadi və siyasi baza Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, xalqın vahid ideologiya - vətən üçün yaşamaq, vətən üçün fəaliyyət göstərmək fəlsəfəsi ətrafında birləşməsində əsas hərəkətverici qüvvə olmuşdur.

Ümummilli lider elə bir fenomen şəxsiyyətdir ki, zaman keçdikcə, illər ötdükcə onun böyüklüyünü daha dərindən dərk edirik. Xalqımızın böyük oğlu Azərbaycanın uğurlu gələcəyinə işıq salan mükəmməl inkişaf konsepsiyası hazırlamış və mənalı ömrünü bu ideyaların həyata keçirilməsinə həsr etmişdir. O, hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, onu zamanın ağır məngənəsindən xilas etmişdir.

Ümummilli liderin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb-fəaliyyət göstərdiyi dövr təkcə bu qədim diyarın deyil, bütün Azərbaycanın gələcək taleyində mühüm rol oynamışdır. Naxçıvanın ağır günlər yaşadığı, blokada çətinliyinin və işğal təhlükəsinin getdikcə dərinləşdiyi bir vaxtda ulu öndərin birbaşa iştirakı və rəhbərliyi altında muxtar respublikada tarixi qərarlar qəbul edilmiş, müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır.

1993-cü ildə Azərbaycanda xaos, vətəndaş müharibəsi alovlananda xalqımız ümummilli liderinə yenidən üz tutdu, nicatını onun hakimiyyətə qayıdışında gördü. Görkəmli dövlət xadimi Azərbaycanı hərc-mərclikdən, müstəqilliyini itirmək təhlükəsindən xilas edərək ictimai-siyasi sabitlik və hərtərəfli inkişaf yoluna çıxarmışdır. 1993-2003-cü illərdə Vətənə və xalqına xidmət nümunəsi göstərən ümummilli lider doğma Azərbaycanın davamlı inkişafını təmin etmiş, onu tərəqqiyə qovuşduraraq bütün dünyada tanıtmışdır.

Ümummilli lider Heydər Əliyevin siyasətinin davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını da yeni inkişaf mərhələsinə qovuşdurmuşdur. Muxtar respublikada quruculuq işləri geniş vüsət almış, iqtisadiyyatın dinamik inkişafı, sosial proqramların icrası, enerji və ərzaq təhlükəsizliyi təmin edilmişdir. Qazanılan bütün bu uğurlar, təbii ki, dahi şəxsiyyətin ideya və amallarının dönmədən həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: "Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır".

Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də ümummilli liderin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

* * *

Ali Məhkəmədə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan anım tədbiri keçirilib.

Tədbirdə çıxış edən Ali Məhkəmənin sədri Ramiz Rzayev tarixə yenilməz şəxsiyyət, nadir istedada malik dövlət xadimi və dahi siyasətçi kimi daxil olmuş ulu öndər Heydər Əliyevin ömür yolundan danışıb. O, Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrünün bu böyük şəxsiyyətin adı ilə bağlı olduğunu nəzərə çatdırıb.

Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ramiz Rzayev ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində fenomen şəxsiyyət olaraq Sovet İttifaqı kimi nəhəng dövlətin siyasi rəhbərliyində təmsil edildiyini vurğulayıb. Qeyd edib ki, ümummilli lider Heydər Əliyev dünyanın tanınmış dövlət və siyasi xadimləri sırasında ən görkəmli və böyük təsirə malik lider olduğunu əməli fəaliyyəti ilə göstərib. Ulu öndər Heydər Əliyev Azərbaycan tarixinə müstəqilliyimizin memarı, dövlətçiliyimizin xilaskarı kimi düşüb. Dahi rəhbər müasir dövrümüzdə azərbaycançılıq ideyasının yaradıcısı olub, Vətənin müstəqilliyi, inkişafı, xalqın milli mənəvi tərəqqisi üçün möhtəşəm işlər həyata keçirib. Bu gün Azərbaycanın neft strategiyasında qazandığı uğurların əsasını ulu öndər Heydər Əliyev qoyub. Ölkəmizdə iqtisadiyyatın, elmin, mədəniyyətin, incəsənətin, ədəbiyyatın, idmanın inkişafının təməli onun adı ilə bağlıdır. Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti azərbaycançılıq məktəbidir. Hər yeni gələn nəsil bu böyük məktəbdən Vətənin, xalqın inkişafı naminə faydalanır və daim faydalanacaq.

Ali Məhkəmənin sədri ulu öndər Heydər Əliyevin amallarının xalqın gündəlik fəaliyyətində və düşüncəsində yaşadığını bildirərək bu amalların xalqımızı tərəqqi zirvəsinə doğru inamla aparan, ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla gerçəkləşdirildiyini vurğulayıb.

Tədbirdə çıxış edənlər müasir müstəqil dövlətimizin banisi və qurucusu ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüblər. Çıxışlarda ümummilli lider Heydər Əliyevin Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu sahəsindəki misilsiz xidmətləri qeyd olunub, dahi rəhbərin qoyduğu irsin daim yaşayacağı bildirilib.

* * *

12 dekabrda Sumqayıtda ümummilli lider Heydər Əliyevin anım günü ilə bağlı mərasim keçirildi. Öncə dövlət himni səsləndi və ulu öndərin ruhuna dualar oxundu. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov və ictimaiyyətin nümayəndələri Heydər Əliyev prospektində ucaldılmış ümummilli liderin abidəsini ziyarət etdilər.

Anım mərasimində vurğulandı ki, Azərbaycanın 1969-cu ildən başlanan dövrü ulu öndərin adı ilə bağlıdır. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə öz zəngin təcrübəsi, yüksək intellekti, mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olduğu üçün milli inkişaf konsepsiyasını işləyib hazırlamış və onu dönmədən həyata keçirmişdir. Ötən əsrin 70-ci illərinin əvvəllərindən Azərbaycanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində yeni bir dövr başlanmışdır. Bu illərdə Azərbaycan tarixinin öyrənilməsinə, milli təfəkkürün oyadılmasına xüsusi əhəmiyyət verildi. Məhz həmin illərdə ölkənin inkişafının təməli qoyuldu və bu yolda mühüm addımlar atıldı.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyevin uğurlu siyasəti neçə illər əvvəl qoyulmuş milli dövlətçilik konsepsiyasının inkişafına təkan verdi. Heydər Əliyev zəkası nəticəsində az bir zaman kəsiyində ölkə qarşıdurmalar məngənəsindən xilas edildi, sabitlik bərpa olundu. İndi respublikamızın hər bir vətəndaşı təhlükəsiz dövlətdə yaşadığına görə ümummilli lider Heydər Əliyevə borcludur. Əsası ulu öndər tərəfindən işlənib hazırlanmış və müvəffəqiyyətlə həyata keçirilən dövlətçilik konsepsiyasını Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev layiqincə davam etdirir və Azərbaycanı işıqlı sabahlara aparır.

Sonra sumqayıtlılar ümummilli lider Heydər Əliyevə olan dərin məhəbbətlərini bildirərək abidənin önünə tər çiçək düzdülər. Ziyarət axşam saatlarına kimi davam etdi.

* * *

Azərbaycan Texniki Universitetində (AzTU) ümummilli lider Heydər Əliyevin xatirəsini anma günü keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ulu öndərin universitetin foyesindəki büstü önünə tər çiçək dəstələri düzüb, əziz xatirəsini ehtiramla yad ediblər.

Universitetin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə AzTU-nun rektoru, professor Havar Məmmədov müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat yolundan, hər kəsə nümunə olacaq fəaliyyətindən, Azərbaycan xalqı və dövləti qarşısındakı müqayisəedilməz xidmətlərindən danışıb. Rektor bildirib ki, ulu öndər tarixin çətin və keşməkeşli yollarında xalqını ciddi sınaqlardan uğurla çıxarıb, zəhməti, zəkası, fitri istedadı ilə Azərbaycan Respublikasının dünya birliyində özünə layiqli yer tutmasına zəmin yaradıb.

Qeyd edilib ki, müdrik siyasətçi Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən parlaq simalardan biri, türk dünyasının və ümumiyyətlə, sivil dünyanın qüdrətli şəxsiyyətidir. Zəmanəmizin diplomatiya tarixində silinməz iz qoymuş Heydər Əliyev xalqın yaddaşında ensiklopedik təfəkkürlü, dərin erudisiyalı müdrik şəxsiyyət kimi qalıb. Ulu öndərin Azərbaycanın milli-mənəvi və əxlaqi dəyərlərinin ümumbəşəri ideyalarla zənginləşməsində misilsiz xidmətləri olub. Təcrübəli dövlət başçısı və vətənpərvər bir insan kimi ulu öndər Heydər Əliyevin milli mədəniyyətimizə, mənəvi irsimizə göstərdiyi hörmət, verdiyi dəyər ictimai həyatımızın hər bir sahəsində özünü göstərmişdir.

Rektor vurğulayıb ki, Heydər Əliyev irsində vətən sevgisi, azərbaycançılıq hissi, xalq və millət sevgisi xüsusi yer tutur. O, bunları insan üçün mənəvi əsas hesab edirdi. Azərbaycançılıq qayəsi Heydər Əliyevin nəzəri irsinin ən yüksək amalı idi.

Daha sonra universitetin dosenti Əyyub Kərimovun "Heydər Əliyevin həyatı bəşəriyyət üçün nümunədir" mövzusunda məruzəsi dinlənilib.

Tədbirdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif anlarından bəhs edən videogörüntülər nümayiş etdirilib.

* * *

Dünən Qubadlı Rayon İcra Hakimiyyətinin Sumqayıtda yerləşən inzibati binasında ümummilli liderin əziz xatirəsini anma mərasimi keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ulu öndərin inzibati binadakı büstünün önünə tər çiçək dəstələri düzüblər, bu böyük şəxsiyyətin müqəddəs ruhunu bir dəqiqəlik sükutla yad ediblər.

Ulu öndəri anma tədbiri mərasim zalında davam etdirilib. Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov çıxış edərək müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xalqımız qarşısındakı əvəzsiz xidmətlərindən danışıb. Natiq bildirib ki, ümummilli lider Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Məhz dahi rəhbər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Xalqımız qarşıya çıxan hər hansı bir çətin problemin həllini, xilaskarlıq missiyasını ulu öndər Heydər Əliyevdə görüb. Ümummilli lider öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub.

M.İsaqov vurğulayıb ki, ümummilli liderin xatirəsinə həsr edilən tədbirlər rayonun idarə və müəssisələrində bir neçə gündür ki, davam edir. Qubadlılılar məcburi köçkün həyatı yaşayırlar. Hər bir Qubadlı ailəsi əmindir ki, ulu öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında torpaqlar geri alınacaq və işğalda olan yurdlarımızda tezliklə üçrəngli bayrağımız dalğalanacaqdır.

Daha sonra ümummilli liderin müqəddəs ruhuna dualar oxundu və iştirakçılara ehsan verildi.

***"Azərbaycan"***